**İQTİSADİ ELMLƏR**

**UOT 330.567**

# YOXSULLUĞUN ƏHALİNİN HƏYAT SƏVİYYƏSİNƏ TƏSİRİNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ

**Vilayət İSMAYILOV***
**Nurlan İMAMƏLİYEV****

Məqalə redaksiyaya daxil olmuşdur: 17 mart 2023; çapa qəbul edilmişdir: 19 aprel 2023; online-da çap edilmişdir: 31 may 2023.

Received: 17th of March, 2023; accepted: 19th of April, 2023; published online:31st of May, 2023.

**Açar sözlər:** *əhali, həyat səviyyəsi, işsizlik, yoxsulluq həddi, yoxsulluq səviyyəsi*

## Giriş

Bəzi tədqiqatlarda "keyfiyyət" anlayışı bir çox elmlərin – fəlsəfə, iqtisadiyyat, sosiologiya və s. tədqiqinin obyekti olan kompleks çoxaspektli kateqoriya kimi nəzərdən keçirilir. Dünya ölkələrində qəbul edilmiş həyat səviyyəsi ölkədə adambaşına real gəlirlərin həcminə və ona müvafiq istehlak həcminə əsaslanaraq müəyyən edilir. İqtisadi ədəbiyyatlarda əhalinin rifah səviyyəsi konsepsiyasının həyat səviyyəsi anlayışı ilə eyni olmadığı qeyd edilir. Çünki əhalinin həyat səviyyəsi dedikdə həyat tərzinə nisbətən daha geniş anlayış başa düşülür. Əhalinin həyat səviyyəsi yalnız ölkədə bir nəfərə düşən real gəlirlərin həcmi ilə deyil, eyni zamanda insanların xüsusi tələbat malları ilə, o cümlədən maddi və mənəvi nemətlərə olan tələbatın səviyyəsi ilə müəyyən edilir. C.Berlinger həyat keyfiyyəti ilə əlaqəli tədqiqatlarında qeyd edirdi ki, əhalinin həyat səviyyəsinə bir sıra əsas elementlər daxildir, bunlara da ölkə üzrə bir nəfərə düşən gəlir səviyyəsi, ümumi cinayət və qanun pozuntularının sayı, əhaliyə göstərilən təhsil və tibbi xidmətin səviyyəsinə aiddir. Həmçinin amerikalı alim C.Forrester həyat keyfiyyətinin xüsusiyyətlərinə əhalinin stress vəziyyətlərinin, həyatda rastlaşdıqları çətinliklərin, əhalinin sıxıntılarının, qida keyfiyyətinin, ətraf mühitin çirklənməsinin və s. də aid edildiyini qeyd edirdi. Kanadalı sosioloq M.Bunqenin həyat keyfiyyətinin əsas elementlərinə havanın keyfiyyətini, içməli suyun keyfiyyətini, mənzillə təminat səviyyəsi və keyfiyyətini, ailə həyatından və işindən məmnunluğu, ictimai işlərdə iştirak dərəcəsini, küçədə təhlükəsizliyin səviyyəsini, əhali tərəfindən bədii qiraətə meyllilik səviyyəsini, mədəniyyətin (kino, teatr tamaşalarına və s. baş çəkənləri) və s. daxil edir [4, s. 5-12].

## Əhalinin həyat səviyyəsi və ölkədəki demoqrafik vəziyyət

Əhalinin həyat səviyyəsi ölkədəki demoqrafik vəziyyətin inkişaf tempi ilə sıx əlaqəlidir. Odur ki, əhalinin demoqrafik vəziyyətinin təhlil edilməsi də vacib şərtlərdən biridir. Əhalinin sayına əsasən il ərzində artım, şəhər və kənd yerlərində ümumi əhalinin sayına nəzərən artım və s. müqayisəli təhlili göstərir ki, 2000-ci ilə nisbətən 2005-ci ildə

* *iqtisad elmləri doktoru, Bakı Avrasiya Universiteti*
*e-mail*: ismaylov1953@mail.ru
** *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* nurlan200047@gmail.com

ümumi əhali sayında 414,6 min nəfər, 2010-cu ildə 964,8 min nəfər, 2015-ci ildə 1560,2 min nəfər, 2020-ci ildə 2034,3 min nəfər və 2021-ci ildə 2086,3 min nəfər artım olmuşdur. İl ərzində artım göstəricisi ən yüksək 2013-cü ildə (113,5 min nəfər) və ən az 2020-ci ildə (52 min nəfər) təşkil etmişdir. Şəhər yerlərində ən yüksək artım 2021-ci ildə (5358,5 min nəfər) və ən az 2000-ci ildə (4107,3 min nəfər) olmuşdur. Həmçinin kənd yerlərində əhali artımının sayında ən yüksək göstərici 2021-ci ildə, ən az göstərici isə 2000-ci ildə olmuşdur ki, bu artımın da ümumi əhalinin sayında xüsusi çəkisi müvafiq olaraq 48,9% və 47,0% təşkil etmişdir. Qeyd edək ki, əhalinin həyat səviyyəsinin müəyyən edilməsinə təsir göstərən əsas amillərdən biri də ölkə üzrə iqtisadi fəal əhalinin sayı hesab edilir. Bu məqsədlə də Azərbaycanda iqtisadi fəal əhalinin sayı dinamikasının nəzərdən keçirilməsinə ehtiyac vardır. Statistik məlumatlar göstərir ki, 2005-ci illə müqayisədə 2020-ci ildə 872,4 min nəfər iqtisadi fəal əhali sayında artım olmuşdur. Həmçinin məşğul əhalinin sayında müqayisə edilən illərdə 416,2 min nəfər artım olmuşdur ki, bu da 2005-ci ilə nisbətən 2020-ci ildə 18,3% təşkil etmişdir. Onu da qeyd edək ki, işsiz əhalinin sayında 2005-ci illə müqayisədə 2019-cu ilə kimi azalma olduğu halda 2020-ci ildə pandemiya şəraiti ilə əlaqəli artım qeyd olunmuşdur ki, bu da 58,1 min nəfər olmuşdur. MDB ölkələrində işsiz əhalinin sayı dinamikasının müqayisəli təhlilinin aparılması ölkələrdə iqtisadi fəal əhalinin sayının ümumi əhali sayında bu göstərici üzrə xüsusi çəkisinin müəyyən edilməsində əhəmiyyətlidir [1, s. 184; 6].

Statistik məlumatlardan görünür ki, Azərbaycanda pandemiya dövrü istisna olmaqla işsiz əhali sayının dəyişməsi bəzi illərdə azalma ilə, bəzi illərdə isə artımla müşayiət edilmişdir. Belə ki, Azərbaycanda işsiz əhalinin sayında 2015-ci il və 2019-cu illərdə əvvəlki ilə nisbətən azalma olmuşdur. Lakin 2020-ci ildə həmin göstərici üzrə hətta 2005-ci ildən də 58,1 min nəfər və ya 18,3% artım olmuşdur ki, bu da mövcud pandemiya şəraiti ilə izah oluna bilər. Dövlət məşğulluq xidməti orqanlarının müvafiq yerli qurumlarında işsiz statusu verilmiş şəxslərin sayının müqayisəli təhlili göstərir ki, 2005-ci illə müqayisədə 2018-ci ildə daxil olmaqla bu göstəricidə azalma olmuşdur. Belə ki, bu yerli orqanlarda işsiz statusu verilmiş şəxslərin sayında 2005-ci ilə nisbətən 2018-ci ildə 36255 nəfər və ya 64,3% artım olmuşdur. Pandemiyanın yayılmağa başladığı 2019-cu il və vüsət aldığı 2020-ci illərdə bir çox iqtisadi sahələrdə iş yerlərinin müvəqqəti dayandırılması ölkədə işsizlik statusu əldə etmək istəyənlərin sayına öz mənfi təsirini göstərdi və 2019-cu ilin sonuna yerli məşğulluq xidməti orqanlarında qeydiyyata alınmış işsiz şəxslərin sayı 81,272 min nəfər təşkil etmişdir [1, s. 184].

Həmçinin dövlət məşğulluq xidməti orqanlarında işsizliyə görə müavinət alanların sayında da kəskin dəyişiklik qeyd edilmişdir. Belə ki, 2005-ci ilə nisbətən 2010-cü ildə bu qrupdan olan insanların sayında 2000 nəfər, 2015-ci ildə 544 nəfər, 2018-ci ildə 970 nəfər azalma olmuş və 2019-cu ildə işsizlikdən sığorta alanların sayı 540 nəfər olmuşdur. Onu da qeyd edək ki, yalnız 2017-ci ildə dövlət məşğulluq xidməti orqanlarında işsizliyə görə müavinət alanların sayında da kəskin artım müşahidə edilmişdir ki, bu da 2005-ci ilə nisbətən 4887 nəfər təşkil edir. Belə ki, 2017-ci ildə işsizliyə görə müavinət alanların sayında kişilərin xüsusi çəkisi 68,1% təşkil etmişdir.

### Azərbaycanda əmək ehtiyatlarının dinamikası

Azərbaycanda əmək ehtiyatlarının dinamikası göstərir ki, 2000-ci illə müqayisədə 2005-ci ildə bu göstəricidə 735,5min nəfər, 2010-cu ildə 1329,2 min nəfər, 2015-ci ildə 1650 min nəfər və 2020-ci ildə 1948,4 min nəfər artımla olmuşdur. Qeyd edək ki, 2005-ci ildə əmək qabiliyyətli yaşda əmək qabiliyyətli əhalinin sayı 97,8% təşkil etdiyi halda bu göstərici 2010-cu ildə 97,6%, 2015-ci ildə 97,8% və 2020-ci ildə 97,5% olmuşdur. Həmçinin iqtisadiyyatda məşğul olan əmək qabiliyyətli yaşdan yuxarı şəxslərin sayında 2000-ci ilə nisbətən 2020-ci ildə 17,5 min nəfər artım olmuşdur. O cümlədən iqtisadiy-

yatda məşğul olan 15 yaşınadək yetkinlik yaşına çatmayan şəxslərin sayı 2010-cu ildən sonra müşahidə edilməmişdir. İqtisadiyyatda məşğul olan əmək qabiliyyətli yaşdan yuxarı şəxslərin sayının 2000-ci ildə ümumi əmək ehtiyatlarının strukturunda xüsusi çəkisi 0,26%, 2005-ci ildə 0,25% və 2010-cu ildə 0,1% təşkil etmiş və sonrakı illərdə bu göstəricinin xüsusi çəkisi 0% olmuşdur. Bu da onu göstərir ki, artıq ölkədə qəbul edilmiş qanunvericiliyə əsasən həmin yaş qrupundan olan uşaqlardan işçi qüvvəsi kimi istifadə edilməsinə icazə verilmir.

Məşğul əhalinin sayı üzrə məlumatlardan görünür ki, 2000-ci ilə nisbətən 2005-ci ildə 206,8 min nəfər, 2010-cu ildə 473,6 min nəfər, 2015-ci ildə 816,1 min nəfər və 2020-ci ildə 1021,1 min nəfər artım müşahidə olunmuşdur [3, s. 24-29].

2005-ci il yanvar ayının 1-dən Azərbaycanda müəyyən edilmiş minimum əmək haqqının həcmi 30 manat, 2010-cu il sentyabrın 1-dən 85 manat, 2017-ci ilin yanvarın 1-dən 116 manat, 2019-cu il sentyabrın 1-dən 250 manat, 2021-ci il yanvarın 1-dən 300 manat həcmində müəyyən edilmişdir. Qeyd edək ki, 2005-ci ilə nisbətən bu göstərici 2019-cu ildə 220 manat artım təşkil etmişdir və bu göstərici 2010-cu ilə nisbətən 2020-ci ildə 215 manat və 2017-ci ilə nisbətən 184 manat, 2019-cu ilə nisbətən 80 manat çox olmuşdur. Fikrimizcə bu, əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində dövlət tərəfindən atılmış əsas addımlardan biri hesab edilə bilər.

**Əhalinin həyat səviyyəsinə təsir göstərən amillər**

Əhalinin həyat səviyyəsinə təsir göstərən amillərdən biri də əhalinin orta aylıq nominal əmək haqqıdır. Bu göstərici əhalinin həm yaşayış tərzini xarakterizə edir, həm də onların müvafiq əmtəə, məhsul və xidmətlər üzrə ödəmə qabiliyyətini xarakterizə edir.

Onu da qeyd edək ki, Azərbaycanda ən yüksək orta aylıq nominal əmək haqqı artımı 2015-ci ildə təşkil etmiş və 455 dollar həcmində olmuşdur. Belorusiyada ən yüksək orta aylıq nominal əmək haqqı 2019-cu ildə (523 dollar), Qazaxıstanda – 2020-ci ildə (498 dollar), Qırgızıstanda – 2019-cu ildə (247 dollar), Ermənistanda2020-ci ildə (388 dollar), Moldovada – 2020-ci ildə (468 dollar), Rusiyada – 2019-cu ildə (740 dollar), Tacikistanda – 2015-cu ildə (143 dollar), Türkmənistanda – 2015-ci ildə 364 dollar olmuşdur.

MDB ölkələrində əhalinin orta aylıq nominal əmək haqqının müqayisəli təhlilini aparmaq üçün şəkil 1-ə nəzər yetirək.

MDB ölkələri üzrə əhalinin orta aylıq nominal əmək haqqı (380 dollar), Özbəkistanda – 2015-ci ildə (456 dollar) və Ukraynada – 2020-ci ildə (432 dollar) təşkil etmişdir [2, s.70-71]. Azərbaycanda əhalinin orta aylıq nominal əmək haqqının kəmiyyətinin müqayisəli təhlili göstərir ki, 2005-ci ildə 2020-ci ildə 285 dollar həcmində artım olmuşdur. Bu göstərici Belorusda – 295 dollar və ya 2,37 dəfə, Qazaxıstanda – 242 dollar və ya 1,94 dəfə, Qırgızıstanda – 181 dollar və ya 3,83 dəfə, Ermənistanda – 274 dollar və ya 3,04 dəfə, Moldovada 363 dollar və ya 4,45 dəfə, Rusiyada – 409 dollar və ya 2,35 dəfə, Tacikistanda 108 – dollar və ya 5,0 dəfə, Türkmənistanda – 309 dollar və ya 6,06 dəfə, Özbəkistanda 193 – dollar və ya 3,64 dəfə, həmçinin Ukraynada – 275 dollar və ya 2,75 dəfə artmışdır.




**Şəkil 1.** MDB ölkələrində əhalinin orta aylıq əmək haqqı
Mənbə: [1, s. 70]

Əhalinin həyat səviyyəsinə təsir göstərən amillər sırasında ölkədə işsizlik səviyyəsinin də mühüm rolu vardır. Belə ki, ölkədə yaşayan əhalinin yaşam tərzinə işlə təmin olunmanın yüksək səviyyədə olması müsbət təsir göstərir. Odur ki, ölkələr üzrə işsizlik səviyyəsi göstəricisinin müqayisəli təhlilinin aparılması hansı ölkədə işsizliyin daha yüksək səviyyədə olmasının müəyyənləşdirilməsində əhəmiyyətlidir (şəkil 2).




**Şəkil 2.** MDB ölkələrində işsizliyin səviyyəsi, %
Mənbə: [1, s. 29]
Qeyd: Tacikistan və Türkmənistan ölkələrinin məlumatları yoxdur

Bu məqsədlə də, MDB ölkələrində işsizlik səviyyəsi dinamikasına nəzər yetirək. Təhlil göstərir ki, müqayisə edilən 2005-2020-ci illərdə işsizlik səviyyəsi MDB ölkələrində stabil inkişaf və ya azalma ilə qeyd edilməmiş və dəyişkən olmuşdur. Məsələn, Azərbaycanda bu dövrdə işsizlik səviyyəsinin ən yüksək səviyyəsi ilə ən az səviyyəsi arasında azalma 2019-cu ilə təsadüf etmiş və 2005-ci illə müqayisədə 2,5% və ən az azalma isə 2020-ci ildə isə 0,1% olmuşdur. MDB ölkələri sırasında işsizlik səviyyəsi üzrə bu göstərici isə Ermənistanda – 3,5%; Ukraynada – 2,3%; Qırğızıstanda – 2,6%; Belorusda – 1,9%; Rusiyada – 2,5%; Qazaxıstanda – 3,3%; Moldovada – 4,3% və Özbəkistanda – 5,1% təşkil etmişdir.

Qeyd etdiyimiz kimi, əhalinin həyat səviyyəsini müəyyən edən göstəricilər sıra-

sında birincisi və vacibi də bir nəfərə düşən nominal ÜDM-in həcmi hesab edilir. BVF, DB və BMT hər il mütəmadi olaraq ölkələr üzrə əhalinin bir nəfərinə düşən nominal ÜDM-in həcmindən asılı olaraq dünya ölkələrinin reytinqini müəyyənləşdirir. Belə ki, həmin göstərici üzrə ölkələrin reytinqi müəyyən edilmişdir ki, bu üç təşkilatın da sıralanmada müvafiq meyletmələri var.

Həmin təşkilatların bir nəfərə düşən ÜDM-in həcminə görə sıralamasına (185 ölkə) nəzər yetirdikdə görürük ki, 2021-ci ildə BVF-nun sıralamasında ilk sırada yer almış Lüksemburq, 2017-ci il üzrə DB-nın sıralamasında da birinci sırada olmasında baxmayaraq həmin ilə nisbətən 2021-ci ildə ölkədə 27197 dollar artıq ÜDM istehsal edilmişdir. Lakin 2013-cü ildə BMT-nin bu göstərici əsasında (193 ölkə üzrə) sıralamasında 3-cü sırada yer almış və bir nəfərə düşən ÜDM-in həcmində 2021-ci ildə artım 17928 dollar təşkil etmişdir [5].

2021-ci il BVF-nin hesablamasına əsasən ikinci sırada yer almış İrlandiya 2017-ci ildə DB-nın hesablamasında 6-cı sırada yer almış və bir nəfərə düşən ÜDM-in həcmində 33063 dollar artım əldə etmiş, 2013-cü il DB-nın hesablamasında isə 17-ci sırada yer almış və 52239 dollar fərq nəzərə çarpmışdır. Qeyd edək ki, yuxarıda göstərdiyimiz təşkilatların sıralamasına görə 2021-ci ilin oktyabrına olan məlumata əsasən ilk onluq ölkələr sırasında 3-10 yerdə İsveçrə, Norveç, ABŞ, Danimarka, İslandiya, Sinqapur, Avstraliya və Qətər yer almışdır. Birinsi sırada olan Lüksemburqla onuncu sırada yerləşmiş Qətərin bir nəfərə düşən ÜDM-in həcmi arasında 69511 dollar fərq olduğu görünür.

Həmçinin Lüksemburqla beşinci sırada yer almış ABŞ-da bir nəfərə düşən ÜDM-in həcmində 61926 dollar fərqin olduğu görünür. Təhlildən belə bir nəticə əldə etmək olar ki, Lüksemburq ölkəsi 2013-cü ildə üçüncü sırada olduqda bu göstərici 113373 dollar təşkil etdiyi halda dörd ildən sonra birinci pillədə yer tutaraq 2017-ci ildə 104104 dollar təşkil etdiyi halda, dörd il sonra, yəni 2021-ci ildə bir nəfərə düşən ÜDM-in həcmində 27197 dollar artıq istehsala malik olmuşdur. Beləliklə bu göstəricinin artımını həm ölkədəki stabil vəziyyətlə, həm də dayanıqlı inkişafa meyliliklə əsaslandırmaq olar. Lakin bu irəliləyişi, baxmayaraq ki, hər üç təşkilatın sıralanmasında ilk onluqda yer almış Qətər ölkəsi üçün demək olmaz. Çünki 2013-cü ildə Qətər onluq ölkələr sırasında 5-ci sırada olduğu halda, 2017-ci ildə 7-ci sıraya, 2021-ci ildə isə 10-cu sıraya kimi geriləmişdi. Qeyd edilmiş üç təşkilatın müxtəlif illərdə verdiyi hesablamalara görə, Azərbaycan hər il nisbətən sıralamada geriləmə əldə etmişdir. Belə ki, 2013-cü ildə ölkəmiz 193 ölkə sırasında 80 sırada yerləşdiyi halda, 2017-ci ildə 26 pillə geriləyərək 106-cı sırada və 2021-ci ildə 15 pillə geriləyərək 95-ci sırada yer almışdır. Həmçinin Azərbaycanda bir nəfərə düşən ÜDM-in həcmində 2013-cü illə müqayisədə 2017-ci ildə 3682 dollar, 2021-ci ildə isə 2647 dollar azalma müşahidə edilmişdir. 2021-ci ildə keçmiş sovetlər ittifaqı ölkələri üzrə hər bir nəfərə düşən ÜDM-in həcminə nəzər salaq (cədvəl 1).

Məlumatların təhlili göstərir ki, keçmiş sovetlər ittifaqı ölkələri içərisində ilk beşlikdə Estoniya, Litva, Latviya, Rusiya və Qazaxıstan yer almışdır. İlk sırada yer alan Estoniya ilə beşinci sırada olan Qazaxıstan üzrə hər bir nəfərə düşən ÜDM-in həcmində 16951 dollar fərq vardır. Estoniya ilə Azərbaycan üzrə bu göstəricidə 21933 dollar fərq vardır. Bu onu göstərir ki, Estoniyada bir bir nəfərə düşən ÜDM-in həcmi Azərbaycana nisbətən 5,24 dəfə çoxdur. Dünya üzrə bir bir nəfərə düşən ÜDM-in həcminin orta göstəricisi ilə Azərbaycanın həmin göstəricisi arasında 7126 dollar fərq vardır. Yəni Azərbaycanda bir bir nəfərə düşən ÜDM-in həcmi dünya üzrə orta göstəricidən də təqribən 2,38 dəfə azdır. Lakin bu göstəriciyə görə, Azərbaycan müqayisə edilən dövlətlər sırasında orta yerdə durur, hətta Ukraynadan – 207 dollar və son sırada yer almış Tacikistandan – 4328 dollar çox istehsal həcminə malikdir.

***Cədvəl 1***

**2021-ci ildə BVF-nin keçmiş sovetlər ittifaqı ölkələrinin bir nəfərə düşən ÜDM-in həcminə görə reytinq sırası**

| S/№ | Reytinq sırası | Keçmiş sovetlər ittifaqı ölkələri | Bir nəfərə düşən ÜDM-in həcmi, ABŞ dolları |
|---|---|---|---|
| 1 | 36 | Estoniya | 27100 |
| 2 | 40 | Litva | 22411 |
| 3 | 43 | Latviya | 19538 |
| 4 | 63 | Rusiya | 11273 |
| 5 | 65 | Qazaxıstan | 10149 |
| 6 | 73 | Tükmənistan | 8843 |
| 7 | 84 | Belorus | 7032 |
| 8 | 95 | Azərbaycan | 5167 |
| 9 | 100 | Ukrayna | 4960 |
| 10 | 102 | Gürcüstan | 4807 |
| 11 | 103 | Moldova | 4791 |
| 12 | 106 | Ermənistan | 4594 |
| 13 | 146 | Özbəkistan | 1901 |
| 14 | 157 | Qırğızıstan | 1224 |
| 15 | 169 | Tacikistan | 839 |
| - | - | - | - |
| | | Dünya üzrə | 12293 |

Mənbə: [ 2, s.1-8; 7]

**III. Azərbaycanda yoxsulluq həddi və yoxsulluq səviyyəsi**

Əhalinin həyat səviyyəsini xarakterizə edən göstəricilər sırasında yoxsulluq həddi və yoxsulluq səviyyəsi əsas əhəmiyyətli amillərdən biri hesab edilir. Belə ki, ölkələrdə əhalinin həyat səviyyəsi qiymətləndirildikdə digər beynəlxalq səviyyədə qəbul edilmiş göstəricilərlə yanaşı bu göstəricilərə də xüsusi fikir verilir. Bu baxımdan da əhalinin yoxsulluq həddi və yoxsulluq dinamikası göstəricisinin təhlil edilməsi vacib şərtlərdən biri hesab edilə bilər (cədvəl 2).

***Cədvəl 2***

**Azərbaycanda əhalinin yoxsulluq həddi və yoxsulluq səviyyəsi dinamikası**

| **Göstəricilər / İllər** | **2001** | **2005** | **2010** | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** | **2021** |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Yoxsulluq həddi, manat | 4,0 | 42,6 | 98,Fəzlullah | 135,6 | 148,5 | 165,7 | 175,2 | 185,5 | 194,9 | 194,9 |
| Yosulluq səviyyəsi,% | 9 | 29,3 | 9,Nəsimi | 4,9 | 5,9 | 5,4 | 5,1 | 4,8 | 6,2 | 6,0 |
| Müzdlu işçilərin orta aylıq nominal əmək haqqı səviyyəsi, manat | 12,8 | 123,6 | 331,ədəbiyyat | 466,9 | 497,8 | 528,5 | 544,6 | 635,1 | 707,7 | 769,8* |
| Azərbaycanda işsiz əhalinin sayı, min nəfər | 58,3 | 243,7 | 251,Fəzlullah | 251,9 | 251,7 | 253,8 | 251,6 | 357,9 | - | - |

**Qeyd:** * – məlumat orta artıma əsasən proqnoz qiymətini ifadə edir
**Mənbə:** [1, s. 71] əsasında müəlliflər tərtib etmişdir

Məlumatların müqayisəli təhlilindən göründüyü kimi Azərbaycanda yoxsulluq həddi 2001-ci ilə nisbətən 2010-cu ildə 4,11 dəfə, 2015-ci ildə 5,65 dəfə, 2020-21ci illərdə 8,12 dəfə artmışdır. Yoxsulluq səviyyəsinə gəldikdə isə 2001-ci ilə nisbətən 2020-ci ildə 7,9 dəfə və ya 42,8%, 2021-ci ildə isə 8,17 və ya 43% azalma olduğunu görmək olar. Ölkə üzrə işsiz əhalinin sayından görünür ki, müqayisə dövründə bu göstəricidə 1,46 dəfə artım olmuşdur.

## Nəticə

Muzdlu işçilərin orta aylıq nominal əmək haqqı səviyyəsinin müqayisəli təhlilindən görünür ki, həmin dövr ərzində bu göstəricidə 6,43 dəfə çoxalma olmuşdur. Fikrimizcə, muzdlu işçilərin orta aylıq nominal əmək haqqı səviyyəsinin bu qədər artımını dövlətin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində gördüyü məqsədyönlü tədbirlərinin nəticəsi kimi qiymətləndirmək olar. Beləliklə, əhalinin həyat səviyyəsinin mövcud vəziyyətinin təhlili göstərir ki, bu istiqamətdə dövlət mütəmadi olaraq tədbirlər sistemi işləyib hazırlayır və onların həyata keçirilməsinə maraqlıdır. Fikrimizcə bütün bu qeyd edilənlər Azərbaycanda əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətlərinin müəyyən edilməsini şərtləndirir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Əmək bazarı. Bakı, 2021, 184 s.
2. Adambaşına düşən ÜDM-in nominal həcmi üzrə ölkələrin reytinqi. 2021(BVF), 2017 (DB), 2013 (BMT) hesabatı əsasında sıralama.
3. Seyidova S.M. Məşğulluq-iqtisadi təhlükəsizliyin əsas komponentlərindən biri kimi // AMEA-nın "Xəbərlər"i (iqtisadiyyat ser.), 2020, №1, s. 24-29
4. Nagimova A.M. Sociological Analysis of the Quality of Life of the Population: Regional Aspect. Kazan, 2010, 306 p.
5. https://ru.wikipedia.org/wiki/Экономика_ Грузии
6. https://www.stat.gov.az/source/demoqraphy/
7. https://ru.wikipedia.org/wiki/Список_стран_по_ВВП_(номинал)_на_ душу_населения



***Резюме***


***Вилаят Исмайлов***
***Нурлан Имамалиев***



***Определение влияния бедности на уровень жизни населения***

В статье отмечается, что уровень жизни населения в странах мира определяется исходя из объема реальных доходов на душу населения в стране и соответствующего ему объема потребления. Раскрывается, что уровень жизни населения является более широким понятием, чем образ жизни, и отмечается, что уровень жизни населения определяется не только объемом реальных доходов на одного человека в стране, но и товарами особого спроса людей. На основании исследований различных ученых, связанных с качеством жизни, отмечено, что к показателям, определяющим уровень жизни населения, относятся уровень доходов на человека в целом по стране, общее количество преступлений и правонарушений, уровень образования и медицинского обслуживания населения. Также в статье авторы отмечают, что основные исследователи к характеристикам качества жизни относят таких показателей, как стрессовые ситуации населения, трудности, с которыми они сталкиваются в жизни, страдания населения, качество питания, загрязнение окружающей среды, качество воздуха, качество водопроводной воды, уровень и качество жилищного обеспечения, удовлетворенность семейной жизнью и работой, степень участия в общественных работах, уровень безопасности на улице

и др.

В статье отмечается, что одним из основных факторов, влияющих на определение уровня жизни населения, считается численность экономически активного населения по всей стране. На основе анализа динамики численности экономически активного населения был определен удельный вес численности экономически активного населения в странах СНГ по отношению к общей численности населения. Повышение уровня среднемесячной номинальной заработной платы наемных работников в 6,43 раза за сопоставимый период можно расценить как результат целенаправленных мер, предпринимаемых государством в направлении улучшения социального положения населения. Таким образом, анализ современного состояния уровня жизни населения показывает, что государство регулярно разрабатывает систему мер в этом направлении и заинтересовано в их реализации. По нашему мнению, все это обусловливает определение направлений повышения уровня жизни населения в Азербайджане.

***Ключевые слова:*** *население, уровень жизни, безработица, порог бедности, уровень бедности*

***Abstract***

***Vilayat İsmayilov***
***Nurlan İmamaliyev***

***Determining the Impact of Poverty on the Standard of Living of the Populatıon***

The article notes that the standard of living of the population in the countries of the world is determined based on the volume of real income per capita in the country and the corresponding volume of consumption. It is revealed that the standard of living of the population is a broader concept than lifestyle, and it is noted that the standard of living of the population is determined not only by the volume of real incomes per person in the country, but also by the goods of special demand of people. Based on the research of various scientists related to the quality of life, it is noted that the indicators that determine the standard of living of the population include the level of income per person in the whole country, the total number of crimes and offenses, the level of education and medical care of the population. Also in the article, the authors note that the main researchers attribute to the characteristics of the quality of life such indicators as the stressful situations of the population, the difficulties they face in life, the suffering of the population, the quality of nutrition, environmental pollution, air quality, the quality of tap water, the level and quality of housing, satisfaction with family life and work, the degree of participation in public works, the level of security on the street, etc.

The article notes that one of the main factors influencing the determination of the standard of living of the population is the number of economically active population throughout the country. Based on the analysis of the dynamics of the economically active population, the proportion of the economically active population in the CIS countries in relation to the total population was determined. An increase in the level of the average monthly nominal wage of employees by 6.43 times over a comparable period can be regarded as the result of targeted measures taken by the state to improve the social situation of the population. Thus, the analysis of the current state of the standard of living of the population shows that the state regularly develops a system of measures in this direction and is interested in their implementation. In our opinion, all this determines the definition of areas for improving the standard of living of the population in Azerbaijan.

***Keywords:*** *population, standard of living, unemployment, poverty threshold, poverty level*

Redaksiya heyətinin üzvü İ.e.d., prof. Həsənli Yadulla Həmdulla oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.